# Gənclərdə vətəndaşlıq və vətənpərvərlik hisslərinin formalaşması

Xüsusilə uşaqlar üçün oyun ciddi tərbiyə vasitəsidir. Milli oyunlarımızın gənclərin vətənpərvər kimi yetişməsində müstəsna rolu vardır. Təəssüf ki, onların bir çoxu da artıq unudulmaq üzrədir. Gənclərin əksəriyyətinin onlar haqqında məlumatları azdır. Onların populyarlaşdırılmasında mətbuatın, televiziyanın imkanlarından istifadə edilmir.

*Təhsil və mədəni-maarif müəssisələri gənclərimizin musiqi zövqünün düzgün formalaşmasına diqqət yetirmirlər. Milli marşlar, vətənpərvərlik nəğmələri az yazılır, onların təbliğinə təşəbbüs göstərilmir. Milli oyunlarımız tarix boyu mənəvi dəyər kimi qorunmuş və çağdaş dövrümüzə qədər gəlib çıxmışdır. İnsanların vətənpərvər kimi yetişməsində onların müstəsna rolu vardır.*

Öz tarixi şəxsiyyətləri ilə öyünmək, milli tarixi ilə fəxr etmək vətəndaşlığın əsas xüsusiyyətlərindən biridir. Bu hisslərin aşılanmasında mühüm tarixi hadisələrin bayram edilməsi, milli qəhrəmanların təbliği və adının əbədiləşdirilməsi mühüm rol oynayır. Hazırda bir-iki hadisə istisna olmaqla bizdə Azərbaycan tarixində dönüş nöqtəsi olmuş tarixi hadisələr (xüsusən uzaq keçmişə aid) qeyd olunmur.

Vətənpərvərlik hissinin formalaşması insanın iqtisadi təfəkkürü ilə vəhdət təşkil edir. Gəncin öz vətənində nəyin istehsal edildiyini, sərvətlərin necə bölündüyünü, hansı nemətlərə malik olduğunu dərk etməsi mühüm tərbiyəvi amildir. Buna görə də vətənpərvərlik tərbiyəsi iqtisadi tərbiyə ilə sıx əlaqədə aparılmalıdır.

Vətəndaşlığın formalaşmasının əsas mənbəyi ictimai quruluş və sosial mühitdir. Quruluş nə qədər demokratik və insanların mənafeyinə uyğundursa, vətəndaşlar da bir o qədər bu cəmiyyəti sevib qoruyacaqlar. Gənc nəslə məhz belə cəmiyyətin gərəkliyi təqdir edilməlidir.

Vətənpərvərlik hisslərinin formalaşmasında soyadseçmə və övladlara ad qoyma məsələsindən danışmamaq olmaz. Bəzi valideynlər öz uşaqlarına milli mentalitetimizlə uyğunlaşmayan başqa xalqlardan gəlmə, hətta bəzən qondarma təsiri bağışlayan adlar qoyurlar. Soyadlarımız yenə də imperiya ənənələrinin təsiri ilə təyin olunur. Təəssüf ki, ictimaiyyət və dövlət bu işə yenə laqeyd münasibət bəsləyir. Hazırda bu sahədə qəti və radikal addımların atılması dövrün tələbinə çevrilmişdir.

Xalqın milli mentalitetini özündə əks etdirən mərasimlər də çox ciddi tərbiyə vasitəsidir. Xalq mərasimləri, xüsusən toylar, yas mərasimləri nəsildən-nəsilə keçərək xalqımızın ən nəcib xüsusiyyətlərini qoruyub saxlamışdır. Təəssüf ki, onlar hazırda çox ciddi deformasiyaya uğrayıb. Gənclərdə vətəndaşlıq şüurunun formalaşdırılmasına təsir edən bütün mərasimlərin yad ünsürlərdən təmizlənməsi, onlarda müsbət nə varsa saxlanılması və gənclər arasında yayılması mühüm vəzifələrdən biridir.

Çox əsrlik tarixə malik mədəniyyətimizin mühüm sahəsi olan xalq incəsənəti növləri gənc nəslin vətəndaşlıq duyğularının formalaşmasında mühüm rol oynamışdır. Dövrün iqtisadi və digər çətinlikləri xalq incəsənətinin inkişafına da mənfi təsir göstərmişdir. Dədə-babalarımızın zəngin sənət növlərini (xalçaçılıq, dulusçuluq, təkəlduzluq) və estetik irsimizin qiymətli cəhətlərini dirçəltmək və tərbiyə işində istifadə etmək sahəsində iş yarıtmaz haldadır. Mədəniyyət abidələrinin qorunub saxlanılması, xalq yaradıcılığının bəhrəsi olan qədim sənətlərin bərpası lazımi səviyyədə deyil. O cümlədən, xalq sənətinin gənclərə öyrədilməsi yaddan çıxarılmışdır. Bu sahə ilə məşğul olan peşə məktəbləri sistemi dağılıb getməkdədir.

Yetişməkdə olan gənc nəslin əsl vətəndaş kimi tərbiyə edilməsində məktəbin üzərinə çox böyük iş düşür. Mövcud dərsliklərin, dərs vəsaitləri və proqramların təhlili belə nəticəyə gətirir ki, son illərdə milli ruhda bir sıra dərsliklər yazılmasına baxmayaraq vəziyyət kökündən dəyişdirilməlidir. Bu məsələ yaradılacaq milli təhsil konsepsiyasında öz yerini tapmalıdır.

Vətənpərvərlik hisslərinin formalaşdırılmasında müəllimlərin böyük məsuliyyəti tələb olunur. Xüsusən rusdilli məktəblərdə milli dəyərlərin öyrənilməsi acınacaqlı vəziyyətdədir. Bu məktəblərin məzunlarının əksəriyyəti hələ də milli mentalitetimizə uyğunlaşa bilmirlər. Sovet dövründə məktəblərdə vətənpərvərlik tərbiyəsinin bütöv sistemi formalaşmışdı. Hazırda bu sistemin bir çox cəhətləri milli ruhumuza uyğun gəlməsə də, onun təcrübəsindən faydalanmaq lazımdır. Təəssüf ki, bu işi öz üzərinə götürəcək qurum yoxdur. Keçmiş komsomol, pioner

təşkilatlarının yerini doldurmaq üçün müxtəlif şagird özünüidarə orqanları yaradılması, uşaq və gənclər birliklərinin işinin canlandırılması tələb olunur.

Sinifdən kənar işlərin, asudə vaxtın, əxlaqi söhbətlərin təşkili, bu mövzuda yazılmış əsərlərin müzakirəsi, tarixi və müqəddəs yerlərə ekskursiyalar, disputlar, görüşlər, müsabiqələr çox az keçirilir. Bütün bunlarsız tərbiyə işini təsəvvür etmək çətindir.

Tərbiyə işinin formalaşması üçün elmi ictimaiyyətin işi görünmür, metodik vasitələr yoxdur. Müvafiq tədqiqatlar aparılmır.

Vətənsevərlik hisslərini formalaşdıran kütləvi ədəbiyyatın yazılması və gənclər arasında yayılması məsələsinə diqqət artırılmalıdır. Son vaxtlar iqtisadi çətinliklər üzündən vətənin keçmişinə, təbiətinə, milli və tarixi qəhrəmanlarına həsr edilmiş kitablar, milli nağıllar, dastanlar işıq üzü görə bilmir. Nəticədə uşaqlar milli dəyərlərimizi mənimsəməkdə, öyrənməkdə çətinlik çəkirlər.

Demokratik cəmiyyətdə insanlar məxsus olduğu dövlətin rəmzlərinə böyük hörmət hissi bəsləyir, onları həmişə digər dövlətlərin rəmzlərindən yüksəklərdə görmək istəyində olurlar. Dövlət rəmzləri bir qayda olaraq dövlətin konstitusiyasında təsbit olunur.

İnsanlarda vətənpərvərlik və vətəndaşlıq hisslərinin ümumi səviyyəsi onların həm də dövlət atributlarına - dövlət dilinə, milli pula, milli orduya (silahlı qüvvələrə) münasibətlərilə müəyyən olunur. Dövlət rəmzlərinə ali hörmət hisslərinin formalaşmasında məktəblərin, tərbiyə ocaqlarının rolu böyükdür. Təəssüf ki, gənclərimizin bir çoxu dövlətə, dövlətçiliyə və Azərbaycanın dövlət rəmzlərinə qeyri-ciddi münasibət bəsləyir ki, bu da onlarda vətənpərvərlik ruhunun zəif olmasının əlamətidir.

Müstəqil dövlətdə kompleks xarakterli vətənpərvərlik din, milli təhlükəsizlik, sabitlik və mənəvi tərbiyə komponentləri ilə sıx bağlıdır. Bu problemlər üzrə də konsepsiyalar hələ hazır olmadığından vətənpərvərlik tərbiyəsini rasional şəkildə aparmaq olmur.

Vətənpərvərlik tərbiyəsini aşılayan üç əsas mənbə-ailə, məktəb və cəmiyyət arasında bağlılıq çox zəifləyib. Bir çox hallarda gənclərin bu mənbələrdən aldıqları informasiyalar bir-birlərini təkzib edirlər.

Vətənpərvərlik tərbiyəsində bəşərilik də həqiqi mənasında aşılanmır.

Ümumbəşəri dəyərlər milliliklə qarşılıqlı əlaqədə aşılanmalıdır. Bəşəriliyin bayağılıqdan təmizlənməyə ehtiyacı olduğu kimi, milliliyin də ifratçılıqdan azad olmağa ehtiyacı var. Adətən keçid dövründə ifratçılıq daha çox büruzə verir. Bunun qarşısını almağın ən düzgün yolu elə bəşərilik hisslərinin aşılanmasıdır.

Vətənpərvərlik tərbiyəsində bəşəriliklə milliliyin vəhdəti həm şəxsi, həm də milli səviyyədə başqalarına hörmət, qayğı, məsuliyyətlə yanaşma və onlar haqda biliyə malik olma keyfiyyəti aşılamalıdır. Yalnız millət və dövlətlərin tarixi, adət-ənənəsi və mədəniyyəti haqda obyektiv bilik əldə etməklə onlara ehtiram göstərmək olar. Bu mənada gənclər erudisiyalı və intellektual cəhətdən yüksək səviyyəli vətəndaş kimi yetişməlidirlər. Hazırda bu istiqamətdə gənclər arasında demək olar ki, iş aparılmır.

Bəşərilik baxımından hörmət həm şəxsi, həm də milli səviyyədə başqasını necə varsa, elə də görmək bacarığıdır. Hörmət başqa millətləri mənfi və müsbət keyfiyyətləri ilə birlikdə qəbul edib qiymətləndirmək deməkdir.

Gənclərimizin xarici ölkələrdə özləri barədə yaratdıqları imic də rahatsızlıq doğurur. Təəssüf ki, bizləri daha çox alverçi və ya qanunları tez-tez pozan adamlar kimi tanıyırlar. Bunun bir sıra obyektiv səbəbləri olmasına baxmayaraq, çox şeylər də gənclərin özündən asılıdır. Zəngin mədəni irsimiz sivil azərbaycanlı obrazı yaratmağa tam imkan verir. Buna xarici ölkələrdə elm, mədəniyyət, idman, biznes və s. sahələrdə uğur qazanan soydaşlarımız sübutdur. Ancaq onların da bir hissəsi azərbaycanlılarını təbliğ edib ictimai şüurda xeyrimizə dəyişiklər etmirlər. Xarici ölkələrdə yeni-yeni formalaşan Azərbaycan diasporları ilə bu sahədə ciddi iş aparılmalıdır.

Azərbaycan gənclərinin beynəlxalq gənclər təşkilatları ilə əlaqələri zəifdir. Gənclərin yüksək təşkilati səviyyədə əlaqələr yaratması çox aktual qoyulmalıdır. Bu cür əlaqələr gənclərdə vətən, vətənpərvərlik və vətəndaşlıq haqda təsəvvürləri genişləndirir və Azərbaycanın dünyanın inkişaf istiqamətindən kənarda olmadığı fikrini formalaşdırır.

***Həmzə CƏFƏROV,***
*tarix elmləri namizədi,*
***Kamran İSMAYILOV,***
*tarix elmləri namizədi*

P.S. məqalənin əvvəli ötən saylarımızda dərc edilmişdir.